Seyidzadə Cahanxanım51

ƏDƏBİYYATDA PSİXOLOGİZM PROBLEMİNİN TARİXİ

Psixologizm qəhrəmanın daxili aləminin, hiss və həyəcanlarının, arzu və istəklərinin bədii təsviridir. Qeyd etmək lazımdır ki, heç bir əsər qısa və primitiv də olsa, qəhrəmanın daxili aləmi haqqında məlumatsız keçinə bilməz. Ardıcıl olaraq, hər bir əsərdə psixoloji təsvir tapa bilərik. Ancaq bu zaman psixologizm estetik xarakterə malik olmur. Psixologizm haqqında o zaman danışmaq oalr ki, psixoloji təsvir əsərdə əsas yer tutsun, məzmun yükünü daşısın, əsərin problematika və pafosunda böyük ölçüyə malik olsun. Psixoloji təsvir dərin məzmuna malik olub qəlbin vəziyyətinin sxematik təsviri ilə məhdudlaşmır. Psixologizm məfhumu özündə “mən” qarşıdurmasının başlanğıcını ehtiva edir (4,s1).

Bəzi nəzəriyyəçilərin fikrinə görə, psixologizm insanın elə bir təsviridir ki, bu zaman müəllif xarakterə kompleks halında yanaşır. Yəni, xarakterin yalnız müsbət və ya mənfi xüsusiyyətləri ayrı-ayrılıqda deyil, əksinə vəhdət halında verilir. Personajın bir-birinə zidd cəhətləri bir xətt üzrə yox, çoxplanlı təqdim olunur. (5, s2)

İnsanın daxili aləminə maraq, onun elmdə öyrənilməsi tarixi heç də qədim olmayıb XIX əsrin sonu, XX əsrin əvvələrində - insanın sürətlə dəyişdiyi və ətraf mühitə təsirinin çıxaldığı bir dövrə təsadüf edir. XX əsrin 60-cı illərində insan psixikasında təhtəlşüurun açılmasına diqqət artır. Qəhrəmanın psixologiyasını təsvir edərkən müəllif eyni zamanda şüurla şüuraltının ziddiyyəti, onlar arasında mübarizəni açır. İnsan təkcə obyektiv aləmi yox, həm də subyektiv aləmi də dərk edir. Daxili aləmə bu cür yanaşma psixologizmin əsas xüsusiyyətlərindən birini təşkil edir.

Daxili aləm anlayışı XVIII əsr Avropa ədəbiyyatına əsasən C.Riçardson, Russo və L.Sternin sentimental romanları ilə daxil olur. Riçardson və Russonun təşəbbüsü ilə təhkiyədə daxili insan obrazı əsas yer tutur. Bu meyl Sterndə daha çox özünü göstərir.

R. Foks “Roman və xalq” əsərində yazır: “Riçardsonun, Russo və Sternin xidməti ondan ibarət deyil ki, onlar insanı təsvirin mərkəzinə qoyublar,ondadır ki onlar göstəriblər ki, insan təkcə özü bütöv aləmdir”. (6, s2)Təsadüfi deyil ki, məhz Riçardson, Russo və Sterndən sonra psixologizm Avropada XIX əsrdən başalayaraq sürətlə inkişaf etməyə başladı. Höte, Myüsse, Hüqo, Hofman, Novalis kimi Avropa yazıçılarının əsərlərində daxili aləmin təsviri, qəhrəmanın hiss və düşüncələri əsas aparıcı amil olur.

İnsan psixologiyasına maraq təqribən iki əsrlik tarixə malikdir və bu zaman ərzində təşəkkül taparaq xeyli irəliləyib, insan psixologiyasının yeni-yeni qatlarının bədii söz sənətinə gətirib. İnsanın daxili aləminin öyrənilməsi, şəxsiyyət, mənəvi-əxlaqi tərbiyə problemi, cəmiyyət və fərd qarşıdurması ədəbiyyatın düşüncə və tədqiqat obyektinə çevrilib. İnsan mənəviyyatının ön plana keçməsi, şəxsiyyət problemi, onun daxili varlığı, suverenliyi, insaniyyətdən uzaq aləmə qarşı durması ədəbiyyatın vəzifəsi kimi obyektiv araşdırma mövzusu olaraq bu gün də diqqəti cəlb edir.

Əsərlərdə insan və onun daxili aləmi, psixologiyası başlıca yer tutmalıdır, insan xoşbəxtliyi mövzusu aydın və emosional rəng almalı, təsiredici gücə malik olmalıdır. Bu da nəsrdə psixologizmin sayəsində mümkün olur.

Yazıçının nəsrində, adətən, psixologizmin formalaşmasının subyektiv və obyektiv amilləri müəyyən olunur. Subyektiv amillərə avtobioqrafik motivə müraciət, inkar, tərəddüd, etiraz pafosu və digər psixoloji motivlər aiddir.

XIX əsrdə psixologizm insanın daxili aləminin bədii dərkində yeni estetik zirvəyə çatır. Tekkerey, Dikkens, Stendal, Flober, Zolya, Mopassan, Tolstoy, Dostoyevski realist psixologizmi təqdim edirlər.

XX əsrdə Ceyms Coys, Marsel Prust, Uilyam Folkner, Frans Kafka və başqalarının adlarını çəkmək olar. Azərbaycan ədəbiyyatında isə Cəlil Məmmədquluzadə, Əbdürrəhim bəy Haqverdiyev, Yusif Vəzir Çəmənzəminli, Süleyman Sani Axundov, Cəfər Cabbarlı insanın daxili dünyasını, psixologiyasını açmaqda xüsusi ustalıq göstəriblər. (5, s1)

Əlbəttə, bu ilk növbədə Ziqmund Freydin XIX əsrin sonu XX yüzilin əvvəllərində insan şüurununalt qatına enən psixoanaliz metodunu kəşf etməsi və bunun digər sahələrə nüfuz etməsi ilə əlaqədardır.

Karl Yunqun analitik psixologiya elmi psixoanalizin tətbiq dairəsini daha da genişləndirdi, ədəbiyyatşünaslıq elmində psixoloji araşdırmalara marağı artırdı.

Yunq “Psixologiya və poetik yaradıcılıq” əsərində yazırdı: “Psixologiyanın – ruhi proseslər barəsində olan elmin ədəbiyyatşunaslıqla bağlanmasının mümkünlüyü sübut tələb etmir. Axı bütün elmlərin də, hər hansı sənət əsərinin də ana bətni ruhdur. Buna görə də ruh haqqında elm, gərək ki, bu bağlılıqda iki predmeti izah və şərh edə bilsin. Bir tərəfdən sənət əsərinin psixoloji strukturunu, digər tərəfdən isə bədii yaradıcı fərdin psixoloji hazırlıq səviyyəsini”.

Psixologizm problemi daim nəzəriyyəçi və tədqiqatçıların diqqət mərkəzində olmuşdur. Bu müəlliflər arasında L. Qinzburq, L.S.Vıqotski, N.A. Qulyayev, A.İezuitov, A. Pavlovski, Y.Andreyev, M.Şatalin, A. Smorodin, F. Fellini, M.İmanov, T. Hüseynoğlu, T.Əlişanoğlu və başqalarının adlarını çəkmək olar.

Adı çəkilən müəlliflər zaman-zaman öz tədqiqat əsərlərində psixologizm probleminə, onun kateqoriyalarına, eləcə də nəzəri-estetik prinsiplərinə dair bir-birindən maraqlı mülahizələr söyləmişlər.

A.İezuitov psixologizm probleminin kompleks halında öyrənilməsini xüsusi olaraq önə çəkir. Tədqiqatçının fikrinə görə, psixologizmin məzmun və formanın daxili qatını təşkil edir və alt qatda gizlənən daxili aləmin və həyatın bədii-estetik ifdəsinə çevrilir. Psixoloji əksetdirmənin həllində qabarıq şəkildə özünü göstərən yazıçı şəxsiyyəti, onun fərdi həyat təcrübəsi, zəngin biliyə və yaradıcılıq prosesinə və həyat təcrübəsinə əsaslanan püxtələşmiş psixoloji biliyi və həyatı bədii zəmin yaradır. (3, s1)

A.İezuitov psixologizm probleminin bədii-estetik prinsip və keyfiyyət kimi öyrənilməsində üç mühüm cəhətə diqqəti çəkir:

1. Psixologizm söz sənəti ilə birlikdə doğulur və bədiiliyin təsdiqində onun üzvi hissəsi kimi çıxış edərək insanı bütünlüklə daxili aləmi ilə birgə alıb öyrənir.Bu baxımdan psixoloji analiz bədii düşüncəyə ayrı-ayrı tərəfləri ilə daxil olub öyrənilə bilər. Məsələn,

a) xarakter cizgilərinin açılması və ifadəsi

b)cəmiyyətdəki münasibətlərin və məişət qayğılarının xarakterə təsiri

51 Bakı Dövlət Universiteti
seyidzadecahan@gmail.com / 050 530 21 93

c) hissi hərəkətlər
ç)ehtirasların analizi
2.Psixologizm bədii yaradıcılığın nəticəsi kimi meydana çıxır.
3.Psixologizm ictimai şüur formalarından biri olaraq estetik prinsip kimi onun üzvi hissəsini təşkil edir.
Psixoloji nəsri öyrənməklə məşğul olan L.Qinzburq yaradıcı metod kimi psixologizm anlayışını açıq və gizli, birbaşa və dolayısı təsviri ayıraraq, belə nəticəyə gəlir ki, "ədəbi psixologizm uyğunsuzluqdan, qəhrəmanın gözlənilməz davranışından başlayır". Deməli, psixologizm daxili aləmin təsviri predmeti yox, şəxsiyyətin qəlbinin – daxili aləminin estetik dərki, bədii təhlilidir.
İ.V.Straxov şəxsiyyətin daxili aləmini təsvir edərkən psixoloji analizin iki formasını təqdim edir: Daxili və xarici. Daxili psixoloji təhlil xarakterlərin daxili aləminin bədii dərki, yəni daxili nitq, yaddaş və ya təsəvvür vasitəsilə gerçəkləşir. Xarici psixoloji təhlildə isə daha çox obrazların və ya xarakterlərin nitq davranışı, mimika və başqa xarici vasitələrin açılması əsas götürülür. A.B.Yesin bu təsnifata "ümumi göstərmə" adlı daha bir forma əlavə edir. Bu forma personajın hiss və düşüncələri haqqında göstərmə yolu ilə, daxili aləmdə baş verən proseslərə son dərəcə konkret işarə etməklə məlumat versin". (5, s2)
L. Kolobayeva psixologizmin yeni perspektivlərindən bəhs edərək yazır: "XX əsr psixologizmin ümumi və əsas tendensiyası – analitik üsulu sintetik üsulun xeyrinə rədd etmək, birbaşa və rasional üsuldan çətin vasitə ilə ifadə olunan və bütün diqqət şüuraltıya yönələn dolayısı üsula keçməkdir". (9, s3)
Futurizmin lideri F.Morinetti də ədəbiyyatı bütövlükdə psixologiyadan xilas etməyin tərəfdarıdır. Lakin qeyd etmək zəruridir ki, ədəbiyyatın əsas obyekti insandır və insanın psixologiyadan kənarda təhlilindən söhbət belə gedə bilməz. Demək ki, ədəbiyyatın məhz, psixologiyadan xilası da qeyri-mümkündür.
Lakin bəzən ola bilər ki, müəllif çox dərin qatlara enməyərək psixologizmin "dolayısı" formasından istifadə etsin.
Daxili aləmdə baş verən proseslərin vəhdətindən alınan psixoloji məqamda hiss və əhvalın, şüur və şüuraltı ifadəsi, şəxsiyyətin psixoloji strukturunda cəmləşən sosial və bioloji şərti keyfiyyəti, təcrübəsi və xüsusən ayrılıqda götürülmüş, onun fərdi-psixoloji həyatı bədii əsərin obyektinə və predmetinə çevirilir.
Psixologizm, həyatilik, varlığı rəngbərəngliyi ilə bədii ifadə dünya ədəbiyyatında XIX əsrin əvvəllərindən güclənmiş, realist yazıçılar yaradıcılıqlarını xalq həyatının təsvirinə istiqamətləndirmişlər... "Qafqaz əsiri", "Bağçasaray fantanı", "Qaraçılar", "Poltava" poemalarında Puşkin zamanı duymuş, fərdi keyfiyyətlərinin zənginliyi ilə fərqlənən, varlıqlarında səciyyəvi əhvalatları cəmləşdirən obrazları dövrün mürəkkəbliyi ilə təmasda ifadə etmişdir. Buna görə də "Ruslan və Lyudmila" Jukovskini dərindən təsirləndirmiş, özünün şəklini səmimi etirafla Puşkinə göndərmişdir: "Məğlub edilmiş şairdən qalib çıxmış şairə".
Psixologizm Azərbaycan ədəbiyyatında 1960-cı illərdə xüsusilə böyuk vüsət almışdır. Yazıçılar psixologizmdən həm sənətkarlıq vasitəsi, həm də mövcud quruluşa bir protest kimi istifadə edirdilər.
Son əlli ildə Avropada insan ruhu barədə biliklər olduqca çox artmış, elmi psxiologiya yaranmış və ilk addımlarındaca onun inkişafı bütün təsəvvürləri arxada qoymuşdur. Bununla birgə həssas duyum özünün və doğmalarının daxili aləmini hiss etmək, oxumaq bacarığı inkişaf etmişdir. Dahi sayılan müəlliflər bu gün artıq sadəlövh görünməyə başlamış, oxucu psixologiyası yazıçını qabaqlamışdır.
Orteqa Qasset "Roman haqqında düşüncələr" əsərində yazırdı: "Yəni roman və tarix doğrudanmı,psixologiyanın nailiyyətlərini öz xidmətlərinə yönəldə bilməyəcəkdir? İnsanlıq öz tələbatını həmişə , elə ki, əyani və konkret oldu, dərhal ödəmişdir".
XX əsrin 30-cu illərində istər ənənəvi Avropa və Amerika romanlarında, istərsə də yeni tipli Latın Amerikası romanında insan psixologiyasının yeni-yeni qatları bədii əsərlərə gəldi. Yeni mifo-poetik meyllər, mifologiyaya və etnik psixologiyaya maraq bütünlükdə dünya ədəbiyyatında təsirini göstərdi.
Ədəbiyyat:
"Müasir Azərbaycan nəsrində psixologizm" Bakı, Elm, 1991. 116 səh.
https://www.youtube.com/watch?v=vN45cT4jdQg
https://millixeber.az/marsel-prust-yaradiciliginda-psixologizm/
http://kaspi.az/az/sabir-ehmedlinin-yamacda-nisane-povestinde-psixologizm/
http://senet.az/%C9%99d%C9%99biyyatda-psixologizm-s%C9%99buhi-sahmursoy/
https://gupea. ub. gu. se/bitstream/2077/26145/1/gupea_2077_26145_1. pdf
http://www. acarindex. com/dosyalar/makale/acarindex-1423878056. pdf
Turanî, A. Sanat terimleri sözlüğü, İstanbul: Remzi Kitabevi, 1998
http://qisadersmuhazireleri.blogspot.com/2016/01/bdiiliyin-meyari.html
Xülasə
Məqalə psixologizmin aparıcı xüsusiyyətlərinin, özünəməxsusluqlarının öyrənilməsinə, eləcə də Avropa ölkələri ədəbiyyatında onun keçdiyi inkişaf prosesinin izlənilməsinə həsr edilmişdir. Məqalənin müəllifi psixologizm və Avropa ədəbiyyatı tarixinə dair elmi-nəzəri tədqiqatlara istinad edir. Janr haqqında tədqiqatlarda "psixologizm" ədəbi termininin və anlayışının dəqiqləşdirilməsi, janrın əsas xüsusiyyətlərinin müəyyən edilməsi mərkəzi yer tutur. Məqalədə bu məsələlərə aid nəzəri fikirlərə və araşdırmalara işıq salınır. Sonda psixologizmin üzvi şəkildə yeni janrlara daxil olmaq imkanına malik olması nəticəsinə gəlinmişdir.
Açar sözlər: Psixologizm, Ədəbiyyat, janr.
SUMMARY
The history of the problem of psychologism in literature
The article deals with the studying of principal features and characteristics of the psychologism and the monitoring of the development process of this genre in the literatures of the Europe countries. The author of article refers to scientific-theoretical researches on the psychologism and the history of the Europen literature. The researches on the genre mainly focuses on the specification of the literary term and notion "psychologism" and the determination of its main characteristics. The article elucidates theoretical opinions and researches regarding these issues.
Finally, it was concluded that, psychologism has access to new genres naturally.

Keywords: Literature, genre, fiction, psychologism

Резюме
История проблемы психологии в литературе
Статья посвящена изучению ключевых особенностей психология, его уникальностей, а также процесса его продвижения в европейской литературе. Автор статьи относится к научно-теоретическим исследованиям истории психология и европейской литературы. В генеологических исследованиях основное внимание в определении литературного термина “психология” и уточнение понятия, имеет важную особенность в определении центрального места. В статье рассматриваются теоретические идеи и исследования по этим вопросам.
Ключевые слова: психология, литература, жанр

RƏYÇİ: dos.L.Ələkbərova